*Akademik Tarih ve Düşünce Dergisi* *Academic Journal of History and Idea*
*ISSN: 2148-2292*
*11 (3) 2024*

*Araştırma Makalesi | Research Article*
*Geliş tarihi |Received:27.04.2024*
*Kabul tarihi |Accepted:25.05.2024*
*Yayın tarihi |Published:25.06.2024*

**Gulnare Yusifova**

*https://orcid.org/0000-0003-0822-0254*
*Associate Professor, Doctor of Philosophy, Baku State University, Azerbaijan, g_y_m65@mail.ru*

*Atıf Künyesi | Citation Info*

Yusifova, G. (2024). Əxlaqi və Hüquqi Reallıq Mədəniyyət Sistemində. *Akademik Tarih ve Düşünce Dergisi, 11* (3), 1630-1644.

# Əxlaqi və Hüquqi Reallıq Mədəniyyət Sistemində

***Öz***

*Tarixin bütün dövrlərində mənəvi-hüquqi reallıq həmişə diqqət mərkəzində olub. Mənəvi-hüquqi şüur mənəvi-hüquqi reallığın əksi kimi çıxış edir. Qeyd olunur ki, ictimai şüurun bir forması olan əxlaqi-hüquqi şüur əxlaqi mədəniyyətin tərkib hissəsi kimi böyük əhəmiyyət kəsb edir. Məqalədə əxlaqi reallıq və əxlaqi şüur, onun insanın azadlığında, müstəqilliyində, sosial və mənəvi məsuliyyətində hansı rol oynadığı təhlil edilir. Müəllif qanunda hüquqi reallığı və hüquqi şüuru, azadlığı, bərabərliyi, ədaləti üzə çıxarır. Məqalədə ümumbəşəri dəyərlər formasında hüquqi reallıq və hüquqi şüur tərəfindən cəmiyyətin idarə olunmasında hüquqi tərbiyənin əsas prinsipləri açıqlanır. Müəllif hüquqi məsuliyyəti və onun mənəvi mədəniyyət sistemindəki rolunu ətraflı açır. Məqalədə belə bir nəticəyə gəlinir ki, mənəvi-hüquqi reallıq mədəniyyət sisteminin tərkib hissəsi və cəmiyyətin idarə olunmasında mənəvi amillərdən biridir.*

***Açar sözlər:*** *əxlaq, hüquq, reallıq, mədəniyyət, dəyər, cəmiyyət, məsuliyyət*

# Moral and Legal Reality in the Cultural System

***Abstract***

*Moral and legal reality has always been the centre of attention in every period of history. Moral-legal consciousness acts as a reflection of moral-legal reality. It is stated that moral-legal consciousness, as a form of social consciousness, is of great importance as a component of moral*

BY NC
Creative Commons Licence

*culture. The article analyses moral reality and moral consciousness, the role it plays in human freedom, independence, social and moral responsibility. The author reveals legal reality and legal consciousness, freedom, equality, justice in law. The article sets out the basic principles of legal education in the management of society with legal reality and legal consciousness in the form of universal values. The author explains in detail legal responsibility and its role in the system of moral culture. The article concludes that moral-legal reality is an integral part of the cultural system and one of the moral factors in the management of society.*

***Keywords:*** morality, law, reality, culture, value, society, responsibility

## Giriş

Sosial fəlsəfənin ən mühüm və aktual problemlərindən biri də əxlaqi və hüquqi reallıq, onun mədəniyyət sistemində rolu məsələsidir. Əxlaqi və hüquqi reallıq bütün dövrlərdə çox böyük əhəmiyyət kəsb etmiş, xüsusən müasir demokratikləşmə və qloballaşma şəraitində öz ciddi və kəskinliyilə diqqət mərkəzində durur. Əxlaqi və hüquqi reallıq mədəniyyət sistemində xüsusi yer tutur. Xalqın toplamış olduğu maddi və mənəvi dəyərlərin, sərvətlərin məcmusu mədəniyyət anlayışında öz əksini tapır. Bu maddi və mənəvi sərvətləri içərisində ən qədim reallıqlardan biri əxlaqi reallıq və onun inikası olan əxlaqi şüurdur. Sinifli cəmiyyət və dövlət meydana gəldikdən sonra hüquq, hüquqi reallıq və hüquqi şüur yaranmışdır.

Bəşər cəmiyyətində əxlaqi Və hüquqi şüur dəyərlər və reallıq ümumbəşəri dəyərlər kontekstində, mədəniyyət sistemində təşəkkül tapmış və inkişaf etmişdir. Ümumbəşəri dəyəriər və mədəniyyət tarixən formalaşaraq cəmiyyətin ayrı-ayrı inkişaf mərhələsində müxtəlif funksiyalar yerinə yetirmişdir. Ümumbəşəri dəyərlər və mədəniyyət konkret bir cəmiyyət üçün devil, bütün bəşəriyyət üçün əhəmiyyəti vardır. *"Ümumbəşəri dəyərlər və mədəniyyət bütün sosial təbəqələrin, qrupların və ya dünya birliyinin ideallarını və maraqlarının real qarşılıqlı təsirinin nəticələrini əks etdirən, cəmiyyətin təşəkkülü və inkişafı prosesində formalaşan dəyər-normativ sistemin tərkib hissəsidir"* (Kerimov, 2000). Mənəvi əxlaqi və hüquqi dəyərlər ümumbəşəri dəyərlərin ayrılmaz tərkib hissəsidir. Burada əxlaqi və hüquqi şüur və reallıq ümumbəşəri ideallara – sosial ədalətə, insan ləyaqətinin formalaşmasına, vətəndaş borcunun yerinə yetirilməsinə, mənəvi həyatın zənginləşməsinə nail olmaqda əsas vasitələrdən biridir. Ali dəyərlərin – reallığın əxlaqi və hüquqi şüurda dərk olunması insanlarda milli və ümumbəşəri xarakterli keyfiyyətlər formalaşdırır. Ümumbəşəri əhəmiyyət kəsb edən maddi mənəvi, sosial-siyasi və hüquqi dəyərlərin ayrılmaz hissəsi olan ali dəyərlər, mövcud reallıqlar bəşəriyyətin həyatı, taleyi, insanların hüquq və vəzifələri, azadlıq, dostluq, etibar, qohumluq əlaqələri, ictimai qayda və fəaliyyət dəyərləri – əmək, yaradıcılıq, həqiqətin dərk olunması, qanunlara hörmət, özünüqoruma, sağlamlıq, özünütəsdiq və özünüreallaşdırma, şəxsi keyfiyyətlər, düzlük, xeyirxahlıq, mərdlik, cəsurluq – əxlaqi və hüquqi şüurda öz əksini tapan dəyərlərdir.

Vətənpərvərlik, hərbi borc, şərəf, milli mənsubiyyət və digər mənəvi- hüquqi sərvətlər insanların əxlaqi-huquqi reallığının və şüurunun əsas elementləridir.

Əxlaqi və hüquqi şüurda inikas olunan ümumbəşəri dəyərləri və reallıqlar aşağıdakı kimi qruplaşdırırlar: 1. Həyat, 2. Sağlamlıq, 3. Bilik, 4. Əmək. Şübhəsiz ki, bu qruplaşdırma ümumbəşəri dəyərlərin miqyasını tam əhatə etmir.

Ümumbəşəri dəyərlər insan həyatında ideallar kimi iştirak etdiyindən ümumbəşəri məzmununun mövcudluq dərəcəsinə görə dəyərlərin və reallıqların ierarxiyasını belə müəyyənləşdirmək olar: 1. Varlıq səviyyəsinə görə: ali, maddi həyat, sosial, mənəvi dəyərlər və reallıqlar. 2. Subyektinə görə: şəxsi qrup, sinif (təbəqə) və ictimai dəyərlər və reallıqlar. 3. İctimai şüur formalarına görə: elmi, mənəvi, estetik-siyasi, hüquqi və dini reallıqlar və dəyərlər (Butnev, 1985). Buradan göründüyü kimi əxlaqi və hüquqi reallıqlar və dəyərlər müvafiq şüur formaları ilə sıx bağlıdır.

Mənəvi dəyərlər və reallıqlar əxlaqi şüurun normativ qiymətləndirici tərəfidir. Mənəvi reallıq və dəyər sferasında bütün ideyalar tənzimləyici funksiyanı yerinə yetirir. İnteqrativ dəyər sistemini özündə əks etdirən mədəniyyət həm əxlaqi-hüquqi şüurda reallıqların və dəyərlərin mənimsəmənilməsini, həm də insanın maddi və mənəvi fəaliyyəti sahəsindəki yaradıcılıq potensialının reallaşması üsulu kimi də çıxış edir. Milli-mədəni dəyərlər və reallıq insanın mənəvi inkişafına təsir edərək onda humanizm, nəciblik, yaradıcılıq qabiliyyəti, iradi keyfiyyətlər və s.-ni formalaşdırır. Mədəniyyətdə bir neçə dəyər və reallıq növü: fərdi, qrup, kollektiv, ümumxalq (milli) və ümumbəşəri reallıq və dəyərlər mövcuddur. Həyat inkişaf etdikcə yeni reallıqlar və dəyərlər yaranır, köhnə dəyərlər tənqid olunur, onlar bir-birilə qarşılıqlı əlaqədə və qarşılıqlı təsirdə olur (Kazımi, 2017). Mənəvi dəyərləri və reallıqları ənənəvi, qeyri-ənənəvi ictimai şüur formalarına uyğun təsnifatlaşdırırlar. Bu dəyərlər və reallıqlar mənəvı mədəniyyət hadisəsi, şəxsiyyətin davranışı və cəmiyyətin maraqları arasındakı ziddiyyətləri aradan qaldırır. Ümumbəşəri ideallların özünəməxsus ifadəsindən biri olan mənəvi dəyərlər və reallıqlar əxlaqi yönümə təsir edərək insanda normativ qiymətləndirici istiqamət formalaşdırır, ictimai həyatın daha mükəmməl formalarına tələbatı əks etdirir. Ümumbəşəri reallıqlardan və dəyərlərdən "xeyir" (və onun əksi olan "şər") əxlaqi şüurda ümumi dəyər dixotomiyası təşkil edir. Onlar cəmiyyətdə əxlaqi münasibətlər və əxlaqi şüur sistemində təsbit olunmuş fəaliyyətin dialektikasını ifadə edir, onların "özünhərəkətinin" daxili mənbəyi kimi çıxış edir" (Titorenko, 1974). A. İ. Titarenko bu ümumbəşəri dəyərlərin və reallıqların əxlaqi şüurun bütün müxtəlif səviyyələrinə, "dəyər yönümünə də, normativ tələblərə və qadağalara da, əxlaqi qiymətləndirməyə də, nəzarət-psixoloji mexanizmin fəaliyyətinə də (onların hissi-intuitiv, rasional səviyyəsinə də) nüfuz etdiyini" göstərir. Xeyir və şərin əksliyi yalnız obyektivliyin – əxlaqi münasibətlər sisteminin deyil, subyektivliyin –

əxlaqi şüurun strukturunun dialektikasında da ifadə olunur, o, əxlaqın bütün fenomenlərinin bir-birinə nisbi əksliyini müəyyən edir.

Müasir bazar iqtisadiyyatı şəraitində qarşılıqlı faydalılıq, praqmatik xeyir prinsipinə əsaslanan ümumbəşər-reallıqlar və dəyərlər insanların əxlaqi şüurunda əsas yer tutur, *"...bizim gələcəyimiz, əxlaqı və xeyiri təmənnasız yardım kimi anlayan həqiqi bəşəri əxlaq sahiblərinə ehtiyatlı, qayğılı münasibətdən çox asılıdır"* (Kudryavtsev, 1986).

Filosoflar haqlı olaraq əxlaqi şüuru "bu və ya digər cəmiyyətlərdə ahəngdarlıq funksiyasını yerinə yetirən faydalılıq prinsipinə haqq qazandıran vasitə kimi" nəzərdən keçirirlər. Əxlaqi reallıq əxlaqi şüurun daxili strukturunda insan azadlığı və ruhunun müstəqilliyi formasında öz əksini tapır. Hər bir millətin sosial xarakterində isə millilik, regionallıq və ümumbəşərilik vəhdət təşkil edir. Xarakterdə millilik bizi bir toplum kimi başqalarından ayıran cəhət deyil, eyni zamanda mənəviyyatca regional, daha sonra ümumbəşəri cəhətdən başqalarına yaxınlığımızdır. Bu o deməkdir ki, hər bir millət milli özünəməxsusluğu ilə fərqləndiyi kimi, regional və ümumbəşəri cəhətlərilə dünya xalqları ilə oxşarlıq təşkil edir. Hər bir fərdin əxlaqi şüurunda bu cəhətlər vəhdət halında inikas olunur.

Əxlaqi reallıq əxlaqi şüur, mənəvi prinsiplər və ümumbəşəri dəyərlər bəşəri sivilizasiyanın ən yüksək mədəni uğurları hesab olunur. Əxlaqi və hüquqi şüur ictimai şüurun xüsusi formaları olmaqla yanaşı, həm də dünyanın qiymətləndirici-mənəvi mənimsənilmə üsullarıdır. Əxlaqı reallığın əsasında sosial, milli, cinsi, dini, yaş və s. fərqlindən asılı olmayaraq hamı üçün ümumi olan ümumbəşəri dəyərlər və normalar durur. Əxlaqın ümumbəşəri nüvəsinə müxtəlif zamanlarda ayrı-ayrı xalqlarda müəyyən xüsusiyyətlər toplanmışdır. Bunlardan sinfi, milli və peşə əxlaqı xüsusiyyətlərini göstərmək olar. Burada sinfi əxlaq dedikdə qrup əxlaqı nəzərdə tutulur. Bu isə əxlaqi reallığın inikasıdır.

Mənəvi münasibətlər vasitəsilə əxlaq ictimai proseslərlə bağlanır, əxlaqi şüur isə ümumi xarakter daşıyır, özündə ən ümumi başlanğıcı əks etdirir. Siyasət və hüquqdan fərqli olaraq əxlaqi reallıq nisbətən zəif dövlət və digər təşkilatlarla möhkəm bağlılığa malik olmur, insanların əməllərini qiymətləndirərkən əxlaq ona vətəndaş, siyasətin və hüququn subyekti kimi deyil, bəşər nəslinin bir üzvü kimi yanaşır. Doğrudur, əxlaqda "mütləqlik" və "ümumbəşərilik" anlayışları bir-birilə qovuşsa da tamamilə üst-üstə düşmürlər. Əxlaqda mütləqlik heç də əxlaqda ən ümumiliklə bağlı olmaya bilər. Mütləqlik əxlaqi şüurda qeyd-şərtsiz, məcburi xarakterli mənəvi tələblərin ən ümumiliklə bağlığını səciyyələndirir. Əxlaqda nisbilik isə mənəviyyat sistemlərinin müxtəlifliyinin qəbul olunmasıdır. Əxlaqda ümumbəşəriliyin aşkar olunması, bununla da mütləq başlanğıcla əsaslandırılması ilə və mənəviyyatın bir sıra sisteminin mütləq xarakterinin qəbul olunması ilə daha yaxşı əlaqələndirilməsidir. Müasir dövrdə ictimai şüur

forması kimi əxlaqi reallıq və əxlaqi şüur, onların insan və cəmiyyət həyatında rolu haqqında təsəvvürlər dəyişir, bu proseslər sosial-fəlsəfi cəhətdən kifayət qədər təhlil olunur, cəmiyyətin mənəvi dirçəlişi ümumbəşəri dəyərlərin prioritetlərinin təsirindən biri kimi qəbul edilir. Xlaq reallıq və əxlaqi şüur insan mənəviyyatının zəruri şərti olub onun strukturunda xüsusi yer tutur. “Buna görə də əxlaqda ümumbəşərilik problemi - onun üstün problemidir”.

Əxlaqi reallıq özündə əxlaqi şüur, mənəvi fəaliyyət və mənəvi münasibətlərin vəhdətini əks etdirir ki, burada bu münasibətlərə xüsusi əhəmiyyət verilir. Çünki onlar əxlaqi norma və dəyərlərin reallaşması üsulunu müəyyən edirlər. Əxlaqi norma, tələblər və dəyərlərdə bəşəriyyətin təcrübəsi əks olunur. Bu mənada əxlaqi şüur ümumi başlanğıcı ifadə edir, lakin ən ümumi olan əxlaqda başqa cür təzahür olunaraq spesifik xüsusiyyətlərə malik olur (Shinyukov, 2009). Deməli, əxlaqi şüurda ən ümumi olan bütün bəşəriyyətə xas olan dəyərlər – ümumbəşəri dəyərlər inikas olunur.

Ümumbəşəri dəyərlər təkcə insanların deyil, bütün cəmiyyətin mənəvi inkişafının mənbəyi kimi çıxış edir. Hər bir insanın əxlaqi şüurunda və bütövlükdə cəmiyyətdə əldə olunan məlumatlar həm əxlaqi normalarda təcəssüm olunur, həm də bütün səviyyələrdə praktiki fəal şəkildə reallaşır. Yaranmış dəyərlərdə mənəvi-mədəni, sivil dəyərlər və praqmatiklik əsas yer tutur. Dünya dinlərinin əksəriyyəti, o cümlədən islam dini də informasiyanın yığımı və onun əxlaqi normalarda təcəssümü yolu ilə inkişaf edir. *“Dünya dinləri, ümumiyyətlə, ümumbəşəri mədəniyyətin özünəməxsus mənəvi-əxlaqi onurğa sütununu əks etdirir. Bu sistemlər insanın bütün qüvvələrini onun daxili və xarici aləmini qoruyan zərif ruhi strukturun formalaşmasına və inkişafina yönəldir”* (Ilyin, 1994).

Əxlaqi şüurda ümumbəşəri və milli-mənəvi dəyərlər vəhdət təşkil edir. Həm fərdi, həm də ictimai həyatın strukturunda ümumbəşəri dəyərlərlə yanaşı, milli-mənəvi dəyərlər də mühüm yer tutur. Milli mənsubiyyətindən asılı olmayaraq bütün insanlara və bütün cəmiyyətlərə xas olan cəhətlər ilk növbədə iqtisadi və intellektual aspektləri əhatə edir.

Müasir industrial cəmiyyətlər özünün yüksək inkişaf səviyyəsinə çatsa da, təəssüf ki, Qərbdə əxlaqi şüurda deqradasiya, ümumbəşəri dəyərlərdə böhran halları baş verməkdədir. Müasir Qərb mədəniyyətinin üstünlükləri ilə yanaşı, onun ümumbəşəri fəzilətləri, həqiqi dəyərləri sarsıdıb aradan çıxaran və insanların mənəvi tənəzzülünə səbəb olan çatışmazlıqlarını da qeyd etmək lazımdır”. Bu, böhranın səbəbləri kimi ümumbəşəri və əxlaqi dəyərlərini sərbəst elan edilməsini, dəhşətli cinayətləri, qloballaşmanın mənfi nəticələrini, mənfi meyllərin, yad fikir və əxlaq normalarının müsəlmanlar arasında sürətlə yayılmasını göstərirlər.

Ümumbəşərilik fəlsəfi tədqiqatın predmeti kimi insan aləmində ümumi və fərdi cəhətləri əxlaqi şüurun müxtəlif varlıq formalarının qarşılıqlı əlaqəsi və təsirinin məcmuusu kimi nəzərdən keçirməyi tələb edir. Əxlaqi şüur və ümumbəşəri dəyərlərin qarşılıqlı münasibətləri

müasir ictimai elmlərdə. Sosial fəlsəfə elmində əsas rol oynayır, sosial və sosiomədəni proseslərin əxlaqi və ümumbəşəri aspektlərinin aşkar olunmasına imkan yaradır.

Müasir demokratikləşmə şəraitində hüquqi reallıqda və şüurda millilikla ümumbəşərilik vəhdət təşkil edir. Mənəvi həyat və millətlərarası münasibətlərin praktikası sübut edir ki, cəmiyyətin demokratikləşməsi səviyyəsinin yüksəlməsilə milli və ümumbəşəri xüsusiyyətlər cəmiyyətin və insanların hüquqi şüuruna, xalqların hüquqi reallığının inkişafına təsir edir. Cəmiyyətdə davranış qaydalarına qanunlara əməl edən insan, hüquqi şüur tərbiyəsi bütün vətəndaşların demokratik şüurunun, yüksək milli və ümumbəşəri mənəviyyatın formalaşması ilə üzvi şəkildə bağlıdır. Bu zaman cəmiyyətin mədəni səviyyəsi yüksəlir, insanlar ləyaqət, azadlıq, ədalət və ümumbəşəri dəyərlər əxz edirlər. Cəmiyyətin mənəvi həyatında şəxsiyyətin azadlığı və qanunçuluğun, insan hüquqları və onun vətəndaş məsuliyyətinin, demokratiyanın inkişafının qarşılıqlı münasibətləri məsələləri aktual olur.

Milli və ümumbəşəri dəyərlər insan fəaliyyətinin özünəməxsus və ümumi xüsusiyyətlərini müəyyən edir, insan nəsillərinin təfəkkürünə və psixologiyasına, hüquqi şüuruna təsir edir. Hüquqi şüur insan varlığının yalnız milli xüsusiyyətlərinin deyil, cəmiyyətin ümumsosial amillərini – siyasi, iqtisadi, ideoloji amillərini də əks etdirir. Cəmiyyətdə hüquq normalarının reallaşması dəyər potensialı kimi hüququn tələbləri insan şüurunda ideyalar, baxışlar, təsəvvürlər, hisslər şəklində əks olunur ki, bunlar da hüququ mühiti qiymətləndirir. Hüquqi şüurda milli xüsusiyyətlərin formalaşması həlledici dərəcədə xalqları bir-birinə birləşdirən müxtəlif mədəniyyətlərlə sıx bağlıdır. Belə əsasda hüquq ümumbəşəri dəyər kimi daha səmərəli fəaliyyət göstərir.

Hər şeydən əvvəl hüquqda, qanunda azadlıq, bərabərlik və ədalətlilik subyektiv deyil, sosiomədəni reallıqda sosial keyfiyyət kimi obyektiv şəkildə öz əksini tapır. C. A. Kərimov yazır ki, *"hüquq həm genetik, həm də funksional mənada müəyyən ictimai münasibətləri ifadə edir..."* (Kerimov, 2000).

Müəllif hüquqa cəmiyyətin ümumməcburi, norması, hakimiyyət iradəsi, ictimai münasibətlərin dəyər tənzimləyicisi kimi baxır. Bu gün ümumbəşəri sivilizasiya tipi yeni planetar dünyaduyumu, çoxqütblü mədəniyyət, yeni kommunikasiya və dəyərlər üsulunun formalaşması, alternativ həyat və dünyagörüşü üsullar axtarışı" "yuridik məkanda" müvafiq hüquqi şüurun formalaşmasını irəli sürür. Hüquqi şüur və hüquqi reallıq bir çox əsaslı xüsusiyyətlərlə səciyyələnir:

- Hüquqi reallıqda və şüurda bilavasitə hüquqla bağlı olan hadisə və proseslər əks olunur;
- İctimai həyatda hüquqi reallıq yuridik anlayışlar və kateqoriyalar vasitəsilə dərk edilir;
- Hüquqi şüur və reallıq irsi xarakter daşıyır.

Ümumbəşəri dəyərlərin təşəkkülündə hüquqi tərbiyə onun əsas prinsipləri olan humanizm və qanunçuluq prinsipləri mühüm rol oynayır. Humanizm prinsipi insanın ali, ümumbəşəri dəyərləri, onun ləyaqət və vətəndaş hüquqlarının müdafiəsini qəbul etməsi, azad və hərtərəfli inkişafının təmin edilməsidir. Qanunçuluq prinsipi bütün dövlət qurumlarının və insanların qanunlara ciddi əməl edilməsini tələb edir, *"İnsanların şüurunda (ümumbəşəri) və milli hüquqi mədəniyyəti təmsil edən siyasi-hüquqi ideyalar, norma və prinsiplərin inteqrasiyasına yönəlmiş tədbirlər sistemi hüquqi təriyə kimi çıxış edir. İnsan milli və ümumbəşəri əsasa malik bir çox hüquqi dəyərləri müxtəlif sosial təcrübə prosesində dərk edirlər"* (Guseinov, 2006).

İ. A. İlyinin fikrincə, hüquq "insanları subyektiv-hüquqi qarşılıqlı əlaqə və münasibətlərin canlı qaydaları ilə bir-birinə bağlayaraq onların təbii qardaşlığını" bərqərar edir:

*"Təbii hüquqa görə bütün insanlar hüquqi ünsiyyətlə qarşılıqlı hüquqi etirafla birləşmiş olur; dünya mənəvi mədəniyyəti bu vəhdət üçün sarsılmaz əsas rolu oynayır, beynəlxalq müsbət hüquq bu fövqəl-milli və fövqəl-dövlət hüquqi birliyin yaranması üzərində işləyir"* Müəllif beynəlxalq hüquqi qardaşlığın birliyini dağıtmağa cəhd edən amillərdən milli hüquq, milli dövlətçilik və milli mədəniyyət uğrunda mübarizəni göstərir. Bunlar hüquqi təşkilatların, beynəlxalq hüquqi qardaşlığın dağılmasına, insanların həyat və mövcudluq uğrunda mübarizə aparmasına beynəlxalq səviyyəli müharibələrə gətirib çıxara bilər.

*"Yalnız normal hüquqi şüur bu çətinlikləri ruhun təbiətinin və dövlətin təbiətinin düzgün anlaşılması vasitəsilə həll edə bilər; bu həll etmə vətənpərvərliyi ruhun həqiqi vəziyyəti və mənəvi beynəlmiləlçiliyin zəruri əsası beynəlxalq qardaşlığın müsbət- hüquqi təşkilinə canlı, gerçək yol kimi bərqərar edir"* (Ilyin, 1994).

Sağlam hüquqi şüur dövlətçilik düşüncə tərzini və vətənpərvərlik hisslərini yalnız fərd, dövlət, cəmiyyət üçün deyil, bütün bəşəriyyət üçün zəruri ümumbəşəri dəyər halı kimi həyata keçirir. Hüquqi şüurun ümumbəşərilik kontekstində tədqiqi zamanı onu da nəzərə almaq lazımdır ki, hüquqi ideologiyanın sosial həmrəylik və millətçilik növləri ümumbəşəriliyə müxtəlif cür təsir edir. Həmrəylik sosial həmrəylik ideyasına söykənərək obyektiv hüququn əsası kimi dövlətin özbaşınalıq imkanlarını məhdudlaşdırır. Subyektiv həmrəylik hüququ vəzifələrə reaksiya kimi özünü göstərir. Əgər obyektiv hüquq sosial həmrəyliyə əsaslanırsa, subyektiv hüquq isə bilavasitə və məntiqi olaraq ondan törəyir. Əslində hər cür fərd obyektiv hüquq sayəsində sosial həmrəyliyə yardım etməyə borcludur. Buradan belə çıxır ki, insan sosial ədalətə kömək etmək, onun boynuna düşən sosial rolu yerinə yetirməyə mane olanlara aradan qaldırmaq üçün hər cür aktı həyata keçirmək hüququna malikdir. Sosial həmrəylik hüquqda ümumbəşəriliyin tərkib hissəsi kimi çıxış edir. Millətçilik fərdi-insan və vətəndaş hüququna qarşı insanların vahid dil və vahid mədəniyyətə görə birləşən sosial təsisat kimi millətin hüquqi

ideyasını irəli sürür. Millətçiliyin ən kəskin forması irqçilikdir. Millətçilik, irqçilik, şovinizm, faşizm bir millətin digər millətin hüquqlarının tapdağına görə ümumbəşəri hüquqi dəyərlərə mənfi təsir edən ən eybəcər, antibəşəri amil hesab olunur. Hüquqi sistemin komponentlərini sabit, statik və inkişafda, dinamikada nəzərdən keçirmək lazımdır. O, hüquqi sistemə yuridik hadisə kimi daxil olan hüquqi şüur, hüquqi qaydalar, hüquqi mədəniyyət, yuridik təcrübənin qarşılıqlı münasibətdə olduğunu göstərir.

Hüquqi qayda hüquqi sistemin bütün komponentləri arasında hüquqi əlaqə yaradır. Ümumiləşmiş şəkildə demək olar ki, qayda-qanun hüquqi çərçivədə azadlıq, ədalət, bərabərlik dəyərlərinə əsaslanan hüquqi aktları həyata keçirir, insanın hüquq və maraqlarının reallaşmasının etibarlı qarantı, vətəndaş cəmiyyəti təsisatları, dövlət hakimiyyəti mexanizminin səmərəli fəaliyyətinə kömək edir. Hüquqi şüurla qarşılıqlı əlaqədə olan hüquqi reallıq – qayda-qanun şəxsi və sosial dəyər əhəmiyyəti kəsb edir. Belə ki, subyektin şüurunda hüquq, qayda-qanun obrazını, təsəvvürünü formalaşdırır. Bu zaman ictimai həyatın hüququnun nizamlanması haqqında rasional və ideal obraz birləşir.

Milli hüquqi qayda-qanunların formalaşmasına milli, inteqrasiya olunmuş dövlətlərarası beynəlxalq (ümumbəşəri) qayda-qanunların müqayisəsi nəticəsində yaranan, onun etibarlığı, möhkəmliyinin hüquqi qiymətləndirilməsi təsir edir. Qayda-qanun cəmiyyətin və bəşəriyyətin hüquqi şüuru olmadan bərqərar ola bilməz. Hüquqi şüur hüququn formalaşdığı bütün mərhələlərdə, bütün səviyyələrdə (milli və ümumbəşəri) iştirak edir. "Hüquqi şüurun əsas nöqtəsi insanın hüquqi dəyərləri, hüquq və azadlıqlarını dərk etməsi, fəaliyyətdə olan hüququn ümumbəşəri dəyərlərə uyğun qiymətləndirilməsidir.

Hüquqi şüur hüququn və onun sosial təsisatlarının qiymətləndirilməsi və onlar haqqında biliklərin, insan şüurunda hüququn inikasının nəticələrini əks etdirir. Hüquqi dövlət vətəndaş cəmiyyətində səmərəli fəaliyyət göstərir, suveren hakimiyyət ümumbəşəri dəyərlərin qəbul olunmasına əsaslanır, vətəndaşların hüquqları yüksək şəkildə müdafiə olunur. *"Vətəndaş cəmiyyətinin bütün səciyyəsinin"* (Gushchin, 2002) kompleksi arasında onun əsas fərqli xüsusiyyətlərini ayırmaq lazımdır. Bunlar aşağıdakılardır:

- Suveren hakimiyyət orqanların fəaliyyətində ümumbəşəri dəyərlərin qəbul edilməsi;
- Hüququn üstünlüyü;
- Vətəndaşların hüquq və azadlıqlarının reallığı

Vətəndaş cəmiyyətinin digər xüsusiyyətləri kimi bütün orqanlarının qanunla bağlılığı, dövlət və şəxsiyyətin qarşılıqlı məsuliyyət hüquq qaydalarının yüksək səviyyədə təmin edilməsini, qanun qarşısında hamının bərabərliyi və hüququn aliliyini göstərir. Hüquqi şüur və

vətəndaş cəmiyyəti qarşılıqlı dialektik əlaqədə olan ümumbəşəri dəyər kimi insan birliyinin mükəmməl və normal formaları hesab olunur.

Avropada formalaşmış ümumbəşəri liberal-demokratik dəyərlər müasir dövrdə özünün güclü humanist potensialını qoruyub saxlamaqdadır. Bunlar hazırda beynəlxalq və dövlət-daxili hüquqda təsbit olunmuş ümumbəşəri dəyərlər hesab olunur. Hüququn azadlıq meyarı fəlsəfi şərhi, hüquq və qanunun fərqləndirilməsi hüquqşünaslıq üçün kifayət deyildir və hüquqi məsələlərin praktiki həlli üçün az şey verir. Çünki hüquqşünaslığın dövlət məcburiyyəti yolu ilə xüsusi qaydada təmin olunan xüsusi növ normalar sistemi kimi hüquqi anlamağa ehtiyacı var. Nəticədə ümumbəşəri dəyərə hüquq fəlsəfəsinin mücərrəd yanaşması ilə fəaliyyətdə olan hüququn müxtəlif sahələrinin daha konkret tələbləri arasında toqquşma əmələ gəlir. Müxtəlif ölkələrdə ayrı-ayrı şəraitlərdə ən ümumi, qlobal dəyərlər və konkret hüququn həyata keçmiş prinsipləri arasında da toqquşmanın yarandığını qeyd edir.

Beləliklə, “əxlaqi şüur”, “şəxsiyyət”, “əxlaqi şüurun strukturu”, “mədəniyyət”, “dəyərlər”, “dəyərlərin strüktürü və növləri”, - “ümumbəşəri dəyərlər” və “əxlaqda ümumbəşərilik” kimi anlayışların təhlili şəxsiyyətin mənəvi mədəniyyətini əxlaqi şüurun mədəniyyətinin məcmuusu, ümumbəşəri dəyərlər və davranış normaları mədəniyyəti kimi müəyyən etməyə imkan verir. Əxlaqi və hüquqi reallıq ümumbəşəri dəyərlər, yəni mədəniyyət sistemində dövlət, fərd və insan birliyi üçün çox böyük əhəmiyyət kəsb edir.

Müasir demokratikləşmə şəraitində mədəniyyətin tərkib hissəsi olan hüquq və əxlaqın cəmiyyətdə rolu daha da zəruri olur. Hüquqi və əxlaqi reallıq insanların sosial məsuliyyətini daha aktual. Məlum olduğu kimi sosial məsuliyyət anlayışının strukturuna vətəndaş, siyasi, iqtisadi, inzibati, hüquqi və əxlaqi məsuliyyət daxildir. Məsuliyyətin göstərilən formaları insanların maddi və mənəvi fəaliyyəti prosesində bəzən sıx şəkildə çulğalaşır, sıx qarşılıqlı əlaqədə təzahür edir. Lakin, məsuliyyət formalarının üzvi qarşılıqlı əlaqəsi eyni zamanda məsuliyyətin konkret formalarına - əxlaqi, vətəndaş, hüquqi, siyasi və s. məsuliyyətə uyğun gələn insanların hərəkətini dəqiq qiymətləndirmək, səciyyələndirmək zərurətini və imkanlarını aradan qaldırmır. Bu olduqca mühüm nəzəri və praktiki məsələdir (Safarov, 1984). Mənəvi məsuliyyətin əxlaq sahəsində nüfuzedici qabiliyyətə malik olduğunu göstərir. O, əxlaqi məsuliyyətin miqyasının sosial məsuliyyətin digər formalarından genişliyini də diqqətə çatdırır. Əxlaqi məsuliyyət azad seçimlə səciyyələnir, azad seçim onun zəruri zəminini və əsasını təşkil edir. Azad seçim insanın əxlaqi məsuliyyətinin əsasıdır. O, yalnız hərəkətin könüllülüyünü göstərmir, həm də sosial ətraf mühit tərəfindən davranışın həvəsləndirilməsi və ya qınanması üçün yeganə əsasdır. Əxlaqın özünün məntiqinə görə onun tələbləri könüllü və şüurlu olmalıdır. Bu anlayışlar əxlaqi məsuliyyətin ən əsas mahiyyətini əks etdirir (Shinyukov, 2009). Qeyd edək

ki, məsuliyyətin əxlaqi davranışın əsas şərti kimi təhlil edilməsi əxlaqın sosial funksiyası məsələsinin həllində mühüm metodoloji əhəmiyyət kəsb edir.

Hüquqi məsuliyyətdən fərqli olaraq əxlaqi məsuliyyət başqa formada sanksiya irəli sürür. Burada “xarici” funksiya rolunda ictimai rəy çıxış edir, “daxili” funksiyanı vicdan yerinə yetirir. Əxlaqi məsuliyyət praktikada reallaşarkən şəxsiyyətin yüksək şüurluluğuna əsaslanır, onun fəallığını, təşəbbüskarlığını artırır və yaradıcılığını gücləndirir. Bəşəriyyətin qlobal ekoloji və ictimai problemlərə qarşı planetar məsuliyyətinin fəlsəfi-sosioloji mahiyyəti vardır. Gələcək nəsillər qarşısında əxlaqi məsuliyyət təbiət qarşısındakı məsuliyyəti azaltmır. Çünki bu məsuliyyət əsaslıdır. Dünya birliyi planetar səviyyədə sülhün yaranmasına, qorunub saxlanmasına və möhkəmlənməsinə görə məsuliyyət daşıyır. Regional, beynəlxalq səviyyədə münaqişələr qlobal terrorizm müharibələr təhlükəsi bütün bəşəriyyət üçün ən qorxulu təhdidlər, hədələr hesab olunur. Bunlar bütün dövlətlər üçün təhlükə mənbəyidir. Ona görə də alimlər həmin fenomenləri tədqiq edərək aşağıdakıları müəyən edirlər (Gushchin, 2002). Müasir demokratikləşmə, informasiya - kommunikasiya texnologiyası, internet dövründə mənəvi məsuliyyətsizliyə görə Qərb korporosiyaları ciddi sanksiyalara məruz qalırlar. Deməli, belə hallarda artıq əxlaqi, iqtisadi məsuliyyət yetərli olmur, hüquqi məsuliyyət məsələsi önə keçir.

Dünyada müxtəlif ölkələrdə bu və ya digər hərəkətlərə hüquqi və əxlaqi qiymətləndirməyə dair mövcud qanunvericilikdəki hüquqi sistemlər, ənənəvi və müasir əxlaqi dəyərlər bir-birindən fərqlənir. Daxili istifadə olunan aksiyaların kursunun gələcəkdə artması haqqında məxfi informasiya sayəsində onları əvvəlcədən ucuz qiymətə alan şəxslərin hərəkətləri müxtəlif ölkələrdə fərqli qiymətləndirilir. ABŞ və Böyük Britaniyada bu cür hərəkətlər qanunla cəzalandırılır. İsveçdə isə bu cür hərəkətlər əxlaqi cəhətdən mühakimə olunur. Bu onu göstərir ki, bu və ya digər normaların pozulması sahəsində qanunvericiliyin möhkəmləndirilməsi və genişləndirilməsi qətiyyən hamı tərəfindən əxlaqi-etik normaların pozulmasının hər hansı universal konstruktiv xəbərdarlıq metodu kimi təbliğ olunmur. Buradan aydın olur ki, praqmatik əsasdan çıxış edərək əxlaqi məsuliyyət hüquqi və peşə məsuliyyətilə əvəz oluna bilməz.

Müasir demokratikləşmə şəraitində alimlərin və dövlət qulluqçularının əxlaqi məsuliyyəti artır. Alimlər bəşəriyyətə fayda verməyə çalışırlar. Alimin əxlaqi məsuliyyəti və peşə etikası spesifik xüsusiyyətlərilə fərqlənir. Elmi fəaliyyətin əxlaqi cəhətdən dəyərləndirilməsi ideyasının tarixi qədimdir. Lakin müasir IKT dövründə bu problem daha da aktuallıq kəsb edir. Artıq bəşəriyyət dərk edir ki, elmi fəaliyyətin insanlar üçün faydalı nəticələri ilə yanaşı, onun potensial təhlükəsi də var. “Bu gün nüvə fizikası, biotexnika və təbabətin (orqanların

köçürülməsi, gen mühəndisliyi, insanların klonlaşdırılması), psixatriya və psixotexnikanın (davranışların dəyişdirilməsi, psixotrop vasitələr) nailiyyətlərinin ziyanı da var.

2007-ci il mayın 31-də çıxan “Dövlət qulluqçularının etik davranışı haqqında” Azərbaycan Respublikasının Qanununda dövlət qulluqçularının əxlaqi məsuliyyəti də öz əksini tapdı. Buraya onların vicdanlı davranışı, peşəkarlıq və fərdi məsuliyyətinin artırılması, insanların hüquq, azadlıq və qanuni maraqlarına hörmət etmələri, qərəzsizlik və s. daxildir. Dövlət qulluqçusu tutduğu vəzifəsindən asılı olmayaraq qanunda nəzərdə tutulan qaydaları pozmağa görə əxlaqi (eyni zamanda hüquqi və inzibati) məsuliyyət daşıyır.

Dar mənada dövlət məmurunun əxlaqi məsuliyyətini aşağıdakı şəkildə müəyyən etmək olar: Əxlaqi məsuliyyət dedikdə dövlət, vəzifəli şəxslər və dövlət məmurları arasında əmələ gələn hüquqi münasibətlər başa düşülür. Dövlət məmurları əxlaqi və etik normaları pozduqlarına görə qanunvericilikdə nəzərdə tutulan tədbirlər vasitəsilə öz hərəkətlərinə görə cavabdehdirlər. Dövlət məmurlarının əxlaqi məsuliyyətinin məzmununa etik və əxalqi normaları pozduğuna görə qanunvericilikdə nəzərdə tutulan tədbirlərlə onların cəzalandırılması daxildir. Beləliklə, azadlığın həyata keçməsi dərəcəsi bilavasitə əxlaqi məsuliyyətlə bağlıdır. Əxlaqi məsuliyyət cəmiyyətin transformasiyası, demokratikləşməsi şəraitində xüsusi məna kəsb edir. Belə bir şəraitdə əxlaqi məsuliyyət zahiri məcburetmə və öz hərəkət motivinin düzgünlüyünə daxili inamla sıx bağlı olur.

Əxlaqi şüurun əsas elementlərindən biri kimi əxlaqi məsuliyyət siyasi, hüquqi, iqtisadi və s. məsuliyyət formaları əlaqədə olan sosial -fəlsəfi və etik kateqoriya kimi çıxış edir. Əxlaqi məsuliyyətin özünün müxtəlif formaları mövcuddur. Onlardan fərdi, kollektiv, planetar, korporativ və s.əxlaqi məsuliyyətləri göstərmək olar. Hansı formada çıxış etməsindən asılı olmayaraq əxlaqi məsuliyyət obyektiv və subyektiv mənəvi sanksiyalara söykənir, ictimai rəylə ya təqdir edilir, ya da mühakimə olunur.

Hüquqi reallığın bir növü də hüquqi məsuliyyətdir. Hüquqi məsuliyyət qanunu pozanlara qarşı dövlət tərəfindən məcburi tədbirlərin tətbiq edilməsidir. Hüquqi məsuliyyət əxlaqi məsuliyyətdən onunla fərqlənir ki, birinci halda insan öz hərəkətinə görə qanun qarşısında cavab verir, ikinci halda isə əsas qiymətləndirmə meyarı insanın vicdanı və ləyaqətidir. Müasir demokratikləşmə şəraitində əxlaqi məsuliyyətin rolu artmalıdır, lakin bu zaman hüquqi məsuliyyət sıxışdırılmamalıdır. Əxlaqi və hüquqi məsuliyyətin və bütövlükdə sosial məsuliyyətin digər növlərinin sıx qarşılıqlı təsiri məsuliyyətin səmərəliliyini sübut edir.

Elmi ədəbiyyatda “hüquqi məsuliyyət” anlayışının vahid tərifi yoxdur. “Hüquqi məsuliyyəti” qanunu pozanlara “hüquqi normaların sanksiyaları ilə nəzərdə tutulan dövlət məcburi tədbirlərinin tətbiqi kimi səciyyələndirirlər. Hüquqi məsuliyyət özündə hüquq pozuntusundan əmələ gələn xüsusi orqanların şəxsində dövlətlə hüquq normalarında təsbit

olunmuş tələblərin pozulmasına, hüququ pozduğuna görə müvafiq məhrum olunmalara məruz qalmış hüququ pozanlar arasında əmələ gələn hüquqi münasibətləri əks etdirir. Bu tərifdən göründüyü kimi hüquqi məsuliyyət qanun pozuntusuna görə səlahiyyətli dövlət orqanları və vəzifəli şəxslər tərəfindən prosessual-hüquqi qaydada tətbiq olunan hüquqi məcburiyyət tədbirləridir. Məhrumetmə tədbirləri yalnız hüquq pozuntusu zamanı meydana gəlir. Hüquqi məsuliyyət anlayışının geniş fəlsəfi əhəmiyyəti ondadır ki, o, şəxsiyyətin cəmiyyətə, dövlətə, digər şəxslərə münasibəti kimi, vətəndaşların həmin münasibətə dair vəzifə və borclarının düzgün anlaşılması, dərk olunması müəyyən tələbləri yerinə yetirməsi kimi başa düşülür. Dar mənada – hüquqi məsuliyyətin əhəmiyyəti ondadır ki, bu məsuliyyət dövlətin baş vermiş hüquq pozuntusuna reaksiyası kimi şərh olunur. Hüquqi məsuliyyət bu halda şəxsin hüququ pozduğuna görə qanunda nəzərdə tutulmuş dövlət tərəfindən müəyyən məhrumetməyə məruz qaldığını ifadə edir. Buradan görünür ki, hüquqi məsuliyyətin əsas məzmununu dövlət məcburiyyəti təşkil edir və şəxsin hüququ pozduğuna görə məhrum etməyə məruz qalması hüquqi məsuliyyətin obyektiv xüsusiyyəti kimi özünü göstərir. Hüquqi məsuliyyətin mənfi nəticəsi ondan ibarətdir ki, hüququ pozan şəxs azadlıqdan məhrum ola bilər, müəyyən sanksiyalarla cəzalandırıla bilər, əmlakı müsadirə oluna bilər.

Hüquq pozuntusu hüquqi məsuliyyətin əsası kimi çıxış edir. Demokratik vətəndaş cəmiyyəti quruculuğunda hüquqi məsuliyyətlə yanaşı, dövlət məcburiyyətinin digər növləri - məcburi-təminedici və müdafiə tədbirləri də görülür. Müdafiə tədbirləri hüquqi məsuliyyətdən onunla fərqlənir ki, o, ictimai təhlükənin minimal dərəcəsinə malik olan hüquq pozuntusu zamanı tətbiq edilir. Müdafiə tədbirlərinin əsas mahiyyəti ondan ibarətdir ki, şəxs əvvəllər öhdəsinə götürdüyü vəzifəni yerinə yetirmədiyi zaman o, bu vəzifəni icra etməyə məcbur edilir. Belə halda vəzifənin icrası yerinə yetirilməyə məcbur edildiyi halda əlavə məhrum etmələr tətbiq etmir. Bəzi vətəndaşlar ailə-nigah qanunvericiliyində nəzərdə tutulan vəzifəni - boşandıqda ananın öhdəsində qalan uşağın tərbiyəsi üçün verilməli olan aliment verməkdən boyun qaçırdıqda o, aliment verməyə məcbur edilir. Bu hüquqi məsuliyyət deyil, müdafiə tədbiridir. Hüquqi məsuliyyət o zaman başlanır ki, şəxs alimenti ödəməkdən qəsdən yayınır. O halda həmin şəxs cinayət məsuliyyətinə, hətta əlavə məhrumetmələrə - azadlıqdan məhrum olmağa və ya icbari işləməyə məruz qala bilər. Müdafiə tədbirləri - pozulmuş hüquqların həyata keçməsinə və hüquqi vəzifələrin icra olunmasının təmin edilməsinə yönəlmiş məcburi, dövlət və hakimiyyət tərəfindən tətbiq edilən fəaliyyət növüdür. Müdafiə tədbirləri mülki, ailə, inzibati və əmək hüququnun pozulmasının qarşısını alan fəaliyyətdir (Kudryavtsev, 1986). Müasir fəlsəfə elmində demokratik cəmiyyətdə hüquqi məsuliyyətin differensiasiyası məsələsi əsas problemlərdən biri sayılır. Birincisi, hüquqi məsuliyyətin növlərinin tədqiqi onun bütövlükdə

real ictimai hadisə və fəlsəfi-hüquqi təsisat kimi, xüsusən, sosial məsuliyyətin digər növləri, eləcə də dövlət məcburetmənin başqa növlərilə müqayisədə onun spesifikasını izah etmək üçün xüsusi əhəmiyyəti vardır. Hüquqi məsuliyyətin növləri onun başlanmasının əsasları sistemini, faktiki və hüquqi şərtlərinin məcmuusunu müəyyən edir. İkincisi, hüquqi məsuliyyətin əlamətləri mücərrəd deyil, onun konkret növləri vasitəsilə təzahür edir... Üçüncüsü, hüquqi məsuliyyətin növləri üzvi şəkildə hüquqi tənzimləmə problemilə bağlıdır. Dördüncüsü, hüquqi gerçəklikdə hüquqi məsuliyyətin növləri qarşılıqlı əlaqədədir, bəzi hallarda bir-birilə çulğalaşır. Beşincisi, hüquqi məsuliyyətin müxtəlif növlərinin mövcudluğunun obyektivliyi onun məqsədləri və funksiyalar ilə izah olunur. Deməli, hüquqi məsuliyyət konkret olaraq növləri vasitəsilə reallaşır, həmin məsuliyyətin nəzəri cəhətdən mahiyyətini, sosial məqsədləri və prinsiplərini yalnız onun müstəqil növlərinin təhlili əsasında açmaq olar. Maddi məsuliyyət hüquqi məsuliyyətin ən yüngül növlərindən biri olub pul formasında dəyən zərərin bərpasını nəzərdə tutur. İntizam məsuliyyət tədris, hərbi, əmək, xidməti intizamı pozulduqda tətbiq edilir. İntizam məsuliyyətin ən geniş yayılmış tədbirləri xəbərdarlıq, töhmət, ciddi töhmət və işdən azad etmədir. İnzibati məsuliyyət çox da böyük olmayan ictimai təhlükə ilə əlaqədar olan hüquq pozuntusu zamanı başlanır. İnzibati məsuliyyət cərimə və cüzi hüquqi məhdudiyyət formalarında ifadə olunur. İnzibati məsuliyyətlə bağlı qəti qərarı ədliyyə hüquq mühafizə orqanları, dövlət müfəttişliyi orqanları, digər inzibati orqanlar və səlahiyyətli vəzifəli şəxslər verə bilər. Mülki-hüquqi məsuliyyət əmlak və şəxsi qeyri-əmlak münasibətlərini tənzimləyən hüquqi normalar pozulduğu, şəxsiyyətə və əmlaka ziyan vurulduğu zaman tətbiq edilir. Mülki-hüquqi məsuliyyət pozulmuş hüquqların bərpası və kompensasiya (əvəz ödəmə) formalarında ifadə olunur. Mülki-hüquqi məsuliyyətə cəlb olunma ölkələrin mülki prosessual məcəllələrinə əsasən həyata keçirilir. Məhz bu məcəllə əsasında iş qaldırılır, sübutlar toplanır, qərar qəbul olunur.

Hüquqi məsuliyyətin ən ağır və mürəkkəb forması cinayət məsuliyyətidir. Cinayət məsuliyyətinə böyük ictimai təhlükə yarandıqda və hər hansı bir ölkənin cinayət məcəlləsində nəzərdə tutulan cinayətlər baş verdikdə cəlb edilir (Kudryavtsev, 1986).

**Nəticə**

Məlum olduğu kimi, demokratik vətəndaş cəmiyyətində hüquqi məsuliyyətin hüquq və qanunvericilik sistemində differensiasiya və inteqrasiya prosesi paralel baş verir. Bu isə hüquqi məsuliyyət təsisatının bölünməsinə gətirib çıxarır: "funksional meyarından asılı olaraq hüquq bərpaedici (müdafiə, əvəzödəmə) və cəzalandırıcı (cərimə) meyarından asılı olaraq hüquqi məsuliyyətin konstitusiya, intizam, mülki-hüquqi, maddi, inzibati, cinayət prosessual növləri iki əsas formada - xüsusi hüquqi və ümumi hüquqi məsuliyyətdə unifikasiyalaşır və vahid şəklə düşür.

Demokratik cəmiyyətdə xüsusi hüquqi və ümumi hüquqi məsuliyyətin rolu və dəyəri ondan ibarətdir ki, xüsusi hüquqi məsuliyyəti təşkil edən mülki-hüquqi və maddi məsuliyyətlər hüquq bərpaedici və kompensiyaedici (əvəz ödəyici) xarakter daşıyır, ümumi hüquqi məsuliyyətə daxil olan intizam, inzibati, cinayət və prosessual məsuliyyətlər repressiv-cəzalandırıcı mahiyyət kəsb edir.Hüquqi məsuliyyət demokratik vətəndaş cəmiyyətində dövlətin əlində qanunun aliliyini təmin edən, insanların və vətəndaşların maraqlarını qoruyan möhkəm və etibarlı vasitəyə çevrilir. O, özbaşınalığın, məsuliyyətsizliyin, hüquq pozuntusunun və cinayətin qarşısını alan güclü bir sipərdir.

Hüquqi məsuliyyət demokratik cəmiyyətdə dövləti və hüquqi məcburetmənin formalarından biri olub müstəqil hüquqi hadisə kimi qanunun aliliyini, konstitusiya qanunlarını, ictimai qayda-qanunu müdafiə etmək, vətəndaşları qanunlara hörmət etmək ruhunda tərbiyə etmək, eləcə də hüquq pozuntusunun şüurunda mənəvi- psixoloji dəyişikliklər yaratmaq məqsədini həyata keçirir. Onun bu məqsədləri cəzalandırıcı və qoruyucu, qabaqlayıcı funksiyaların yerinə yetirilməsində konkretləşir. Bu funksiyalar konkret olaraq repressiv - cəzalandırıcı (cərimələyici), xəbərdaredici - tərbiyəvi, hüquqbərpaedici və ya kompensiyaedici (əvəz ödəyici) funksiyalara bölünür. Hüquqi məsuliyyət həm dövlətin hüququ pozanlardan əvəz, qisas almaq aktı, həm də yeni hüquq pozuntusunun qarşısını alan vasitədir. "Hüquqi məsuliyyət hüquqi münasibətlərin maddi mühafizəsi çərçivəsində reallaşır və inkişaf edir (Kazimi, 2021). Məsuliyyətin hüquqi münasibəti özündə dövlət və hüququ pozanlar arasında təşəkkül tapan hakimiyyət münasibətlərini əks etdirir. Hüquqi məsuliyyət hüququn pozulması baş verdiyi məqamda meydana gəlir və ümumi qaydaya görə hüquq pozuntusuna təyin olunan cəza reallaşdıqda və ya hüququ pozan məsuliyyətdən azad olduqda başa çatır.

Beləliklə belə nəticəyə gəlmək olar ki, əxlaqi və hüquqi reallıq mədəniyyət sistemində özünəməxsus elə bir rol oynayır ki, cəmiyyətin idarə olunması məhz bu reallığın inkişaf səviyyəsindən asılı olduğu üzə çıxır. Cəmiyyətin adət-ənənələrlə, ictimai rəylə idarə olunması əxlaqi reallığa, məcburi normalarla, qanunla idarə olunması hüquqi reallığa əsaslanır. Həm əxlaqi reallıq, həm də hüquqi reallıq inkişaf etdikcə əxlaqi şüur və hüquq şüur da inkişaf edir. İctimai şüurun bu formaları, həm də mənəvi mədəniyyətin tərkib hissəsidir. Onların inkişafı sivil cəmiyyətin normal idarə olunmasının şərti və mənəvi mədəniyyətin yüksəlməsi amilidir.

**Ədəbiyyat Siyahi**

Butnev, V.V. (1985). *Implementation of legal liability in civil proceedings.* Yaroslavl.

Guseinov, A. A. (2006). *Law as a cultural phenomenon.*

Gushchin, D. I. (2002). *Legal liability for moral damage*.

Ilyin, I. A. (1994). *On the essence of legal consciousness.*

Kazımi, P. F. (2017). Sosyal ve Kültürel Ortamın Oluşmasında Kitap ve Kütüphanelerin Rolü. *Türk Kütüphaneciliği*, *31* (2), 245-250.

Kazimi, P. F. O. (2021, September). Global Information Network and Conflicts of Interest (Parties, Interests and Conflicts). In *2021 IEEE 16th International Conference on Computer Sciences and Information Technologies (CSIT)* (Vol. 2, pp. 453-456). IEEE.

Kazimi, P. F. O., Oqlu, I. I. A. & Qizi, Y. G. Y. (2022). Philosophical view on information theory (The path from the divine to the digital world). *Technium Soc. Sci. J.*, *32*, 724.

Kazimi, P. F. & Gurbanov, A. I. (2022). Today's factors of user satisfaction with library services and their quality. *Scientific and Technical Libraries*, (2), 109-122.

Kazimi, P. & Aliyeva, A. (2019). Evaluation criteria of censorship and limitation in library and information activity. *Historical sciences*, *17*, 65-72.

Kerimov, D. A. (2000). Methodology of law: subject, functions, problems of philosophy of law.

Kudryavtsev, V. N. (1986). Law, action, responsibility.

Qizi, Y. G. Y. (2022). Philosophy and sociology of modern information activity (modern challenges and scientific and theoretical analysis). *Technium Soc. Sci. J.*, *37*, 760.

Safarov, N. S. (1984). *The problem of moral responsibility.* Baku.

Shinyukov, V. V. (2009). Universal: nature and existence in the modern world. Author of the dissertation. for a Doctor of Science.

Titorenko, A. I. (1974). Structures of moral consciousness.